Avropa Şahmat Birliyi ilə Estoniya Şahmat Federasiyasının birgə təşkil etdiyi yarış 8, 10, 12, 14, 16, 18 yaşlı oğlanlar və qızlar arasında keçirilib. Çempionatda 13 ölkədən 300-ə yaxın şahmatçı iştirak edib. Azərbaycan şahmatçıları yarışda 4 qızıl, 4 gümüş və 1 bürünc medal qazanıblar.

Sürətli şahmat üzrə Təhsil Nazirliyinin Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbinin yetirmələri Aytən Əmrayeva 18 yaşlı qızlar arasında, Aydın Süleymanlı 10 yaşlı oğlanlar arasında I yeri, Xanım Balacayeva 8 yaşlı qızlar arasında II yeri tutublar. 1 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbinin təmsilçisi Ümid Aslanov isə 8 yaşlı oğlanlar arasında qızıl medal qazanıb.

Şahmatçılarımız super finalda da uğurlu oyunlar keçiriblər. Aydın Süleymanlı və Xanım Balacayeva finalda rəqiblərini üstələyərək II yerə yüksəliblər. Bu şahmatçılar blits üzrə keçirilən oyunda da fərqlənərək II yeri tutublar.